# İSTİFADƏÇİ TƏLİMATI

**Hörmətli istifadəçi,**

Azərbaycan ordusunda təkrar hərbi xidmətə qəbul üçün müraciət etmək istəyən namizəd Müdafiə Nazirliyinin rəsmi saytının (mod.gov.az) **"Təkrar hərbi xidmətə qəbul"** bölməsindən elektron müraciət portalına keçid etməlidir.

**Mərhələ 1 – Elektron müraciət portalında qeydiyyat və sənədlərin daxil edilməsi**

- qeydiyyatdan keçmək istəyən namizəd şəxsi kabinetini yaratmalıdır. Bunun üçün elektron müraciət portalının **"Baş səhifə"**sində olan **"Qeydiyyat"** bölməsinə keçid edərək, açılmış pəncərədə **"İstifadəçi qaydaları"** ilə tanış olduqdan sonra "**Qəbul edirəm"** düyməsi sıxılmalıdır;
- növbəti səhifədə şəxsi kabinet yaratmaq üçün müvafiq xanalar doldurularaq **"Kabinet yarat"** düyməsi sıxılmalıdır;
- qeydiyyat zamanı istifadə etdiyiniz e-poçt ünvanına şəxsi kabinetinizin aktivləşdirilməsi üçün göndərilmiş məktubdakı linkə daxil olaraq şəxsi kabinet aktivləşdirilməlidir (linkdən yalnız bir dəfə istifadə etmək mümkündür. Əks təqdirdə məlumatları şəxsi kabinetinizdə olan **"Profilini redaktə et"** bölməsindən daxil edə bilərsiniz);
- linkə daxil olduqdan sonra açılan pəncərədə müvafiq xanalar doldurulmalı və sonda **"Kabinet yarat"** düyməsi sıxılmalıdır (bu mərhələdə namizədin **"Şəxsi kabineti"** yaradılmış hesab olunur);
- yeni açılan səhifədə **"Sənəd əlavə et"** düyməsi sıxılaraq müvafiq sənədlərin elektron forması kabinetə əlavə edildikdən sonra **"Göndər"** düyməsi sıxılmalıdır.

**Mərhələ 2 – Tibbi müayinə**

Bu mərhələdə namizəd Müdafiə Nazirliyinin tibb müəssisəsi tərəfindən keçiriləcək tibbi müayinədə iştirak etməlidir. Tibbi müayinənin yeri və tarixi barədə məlumat Şəxsi kabinetdə olan **"Məktub qutusu"** bölməsinə göndəriləcəkdir.

Tibbi müayinə bitdikdən sonra Şəxsi kabinetdə olan **"Bütün sənədlərə bax"** bölməsinə keçid edərək **"Sənəd qovluğunu redaktə et"** bölməsindən **"Forma-7 əlavə et"** düyməsini sıxılmalıdır. Açılan səhifədə sağlamlıq haqqında arayış (Forma-7) qeyd olunan bölməyə elektron formada daxil edilməli və **"Forma-7 əlavə edildi"** seçimini edərək "**Yadda saxla"** düyməsi sıxılmalıdır. Sənədin əsli isə hazırladığınız sənədlər qovluğuna yerləşdirilməlidir.

**Qeyd:**

1. Şəxsi kabinetinizdə olan **"Sənəd əlavə et"** bölməsində qeyd olunmuş sənədləri elektron formada daxil etdikdən sonra həmin sənədlərin əsli və ya surəti ardıcıllıqla yığılaraq qovluğa yerləşdirilməlidir.
2. Müdafiə Nazirliyi tərəfindən sizə ünvanlanan məlumatların vaxtında əldə olunması üçün **"Məktub qutusu"** bölməsi mütəmadi olaraq yoxlanılmalıdır.
3. Müdafiə Nazirliyinin tibb müəssisələrinə tibbi müayinəyə gedərkən şəxsiyyət vəsiqənizi, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışları özünüzlə götürməyiniz mütləqdir.